UOT 504.05

[1]HACIYEV C.C., [2]ƏHƏDOV V.B.

AzərbaycanTurizm və Menecment Universitetinin
[1]jamalhajiyev@yandex.ru, ORCİD:0000-0002-6409-3010
[2]vasifahad@gmail.com, ORCİD :0000-0003-0003-8933

# AZƏRBAYCANDA İŞĞALDAN AZAD OLMUŞ ƏRAZİLƏRİN EKOLOJİ PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ İSTİQAMƏTLƏRİ

Azərbaycan Respublikası ərazisinin təbii və coğrafi şəraitinin unikallığı burada flora və faunanın növ müxtəlifliyinin rəngarəngliyinə şərait yaratmışdır. Azərbaycanın əlverişli coğrafi şəraiti və iqlimi ölkədə zəngin biomüxtəlifliyin formalaşmasında mühüm rol oynayır.

Azərbaycanın qlobal ekoloji problemlərindən atmosferin zəhərli qazlarla çirklənməsi, iç-

məli su problemi, xəzərin çirklənməsi, torpaqların eroziyası, deqradasiyası və ən əsası ermənilərin ərazilərimizi işğal etmələri nəticəsində ordakı ekoloji tarazlığın pozulması nəticəsində Azərbaycanın ekologiyasına ciddi ziyan dəymişdir. Aşağıda Azərbaycanın əsas ekoloji problemlərinin təsnifatı verilimişdir.

- İşğaldan azad olunmuş ərazilərin ekoloji problemləri
- Xəzər dənizinin sənaye və məişət tullantı suları ilə çirkləndirilməsi;
- Su obyektlərinin, o cümlədən transsərhəd çayların çirkləndirilməsi.
- Torpaqların deqradasiyaya uğraması (eroziya, şoranlaşma və s.):
- Torpaqların tullantılarla çirkləndirilməsi
- Tullantı sularının idarə olunması:
- Atmosfer havasının çirklənməsi:
- Biomüxtəlifliyin, o cümlədən flora, fauana və xüsusi ilə balıq ehtiyatlarının seyrəkləşməsi:
- İqlim dəyişikliklərinin təsiri nəticəsində biomüxtəlifliyin azalması;
- Yaşayış məskənlərinin genişlənməsi ilə bağlı antropogen təsirlər.
- Bərk məişət və sənaye, həmçinin təhlükəli tullantıların tələb olunan səviyyədə utilizasiya olunmaması:
- Tullantıların tam səviyyədə idarə olunmaması;

Qeyd olunan ekoloji problemlərin içərisində Azərbaycan üçün ən dəhşətlilərindən biri də mənfur ermənilərin ölkəmizə qarşı ərazi iddiaları nəticəsində ərazilərimizin 20%-nin işğal edilməsi, həmin ərazilərdə 30 il ekoloji terrorun aparılması, oranın xarabalığa çevrilməsi və ekoloji tarazlığın pozulmasıdır. İşğaldan azad olunmuş ərazilərin özündə dəekoloji problemlər müxtəlif istiqamətlidir:

- Meşələrin və yaşıllıqların məhvi nəticəsində yaranan ekoloji problemlər,
- Təbii sərvətlərin məhvi və səmərəsiz istifadəsi nəticəsində yaranan ekoloji problemlər,
- Şəhərlərin dağıdılması nəticəsində yaranan ekoloji problemlər və ərazilərin səhralaşması,
- Metsomor AES tərəfindən Araz çayının radioaktiv tullantılarla çirkləndirilməsi nəticəsində ərazilərin normadan artıq radiasiya çirklənməsi,
- Qoruqların, yasaqlıqların məhvi nəticəsində ərazilərdə fauna və floranın məhvi,eləcə də "Qırmızı kitaba" düşən müxtəlif bitki və ağac növlərinin məhv edilməsi,
- İşğaldan azad olunmuş ərazilərdə minaların yerləşdirilməsi

Qeyd olunduğu kimi ermənilər tərəfindən 30 il müddətində işğal altında olan rayonlarda qoruqlar və yasaqlıqlar da məhv edilmişdir. Aşağıdakı cədvəldə işğaldan azad olunmuş bölgələrdə qoruqlar və yasaqlıqlar haqqında məlumat verilmişdir.

**Cədvəl 1.**

| | | |
|---|---|---|
| Zəngilan | Bəsitçay Dövlət Təbiət Qoruğu | 107 ha |
| Qubadlı | Qubadlı Dövlət Təbiət Yasaqlığı | 20000 ha |
| Şuşa | Daşaltı Dövlət Təbiət Yasaqlığı | 450 ha |
| Laçın | Qaragöl Dövlət Təbiət Qoruğu | 240 ha |
| Zəngilan | Arazboyu Dövlət Təbiət Yasaqlığı | 2200 ha |
| Laçın | Laçın Dövlət Təbiət Yasaqlığı | 20000 ha |

Cədvəldən göründüyü kimi,ümumilikdə 42997 ha Dövlət qoruq və yasaqlıqları məhv edilmişdir

Bundan əlavə, təbiət abidəsi statusuna malik 152 sayda ağac (Şərq çinarı, palıd, azat, armud və s.), 8 xüsusi qiymətli meşə sahəsi (Şərq çinarı, püstə, ayı fındığı, ardıc, azat, Araz palıdı, çaytikanı, pirkal), 6 ədəd geoloji- palentoloji obyekt ("Azıx", "Tağlar", "Xan", "Qaxal", "Divlər sarayı" mağarası, "Bazaltın sütunvari aralanması"), yaşı 120 ildən 2000 ilədək olan pasportlaşdırılmış 145 Şərq çinarı və digər təbiət sərvətləri uzun illər ağır və misli görünməmiş talanla üzüzrə qalmışdır. Kəlbəcər rayonunda 968 hektar ərazini əhatə edən "Qırmızı Kitab" a daxil edilmiş ayı fındığı ağacları da kütləvi şəkildə qırılmışdır.

Münaqişə dövründə Qarabağ ərazisindəki ətraf yeddi rayonda heç bir məskunlaşma apa-

rılmadan yalnız ərazilər dağıdılmış,tarixi abidələr məhv edilmişdir.Bu barədə məlumatları ürək ağrısız nəzərdən keçirməmək mümkün deyil.

İşğal olunmuş ərazilərdən keçən təbii su mənbələrimiz də Ermənistan tərəfindən həddindən artıq çirklənməyə məruz qalır.Araz və Kür çaylarının qolları olan uyğun olaraq Oxçuçay və Ağstafaçayın Ermənistan tərəfindən ən ağır formada çirkləndirilməsi nəticəsində sözügedən çaylarda canlı aləmin yaşayışı üçün böyük təhlükə yaranmışdır. Araz çayı və qollarının çirkləndirilməsini, flora və fauna növlərinin məhv edilməsini, mineral-xammal ehtiyatlarının qanunsuz mənimsənilməsini dövlət siyasətinə çevirmişlər. Bundan əlavə Metsomor AES tərəfindən Araz çayının radioaktiv tullantılarla çirkləndirilməsi nəticəsində ərazilər normadan artıq radiasiya çirklənməsinə məruz qalmışlar.

**Cədvəl 2.**

**Münaqişə dövründə Qarabağ ərazisindəki yeddi rayonun talan edilmiş, məhv edilmiş qəsəbə, mədəni-məişət obyektləri, tarixi abidələr və şəhid olmuş, əlil olmuş insanları barədə məlumat**

| | **ərazisi, km$^2$** | **əhalisi, min nəfər** | **Dağıdılan və talan edilən qəsəbə və kənd** | **Dağıdılan və talan edilən mədəniməişət obyektləri** | **Dağıdılan və talan edilən tarixi abidələr** | **Şəhid verib, nəfər** | **Əlil olub, nəfər** |
|---|---|---|---|---|---|---|---|
| **Ağdam** | 1094 | 143,4 | 122 | 598 | 27 | 538 | 587 |
| **Füzuli** | 1386 | 98,6 | 54 | 154 | 15 | 528 | 1309 |
| **Cəbrayıl** | 1050 | 50,1 | 77 | 197 | 27 | 347 | 172 |
| **Zəngilan** | 707 | 31,9 | 84 | 138 | 13 | 191 | 110 |
| **Qubadlı** | 826 | 29,5 | 94 | 205 | 12 | 232 | 146 |
| **Laçın** | 1875 | 54,0 | 120 | 575 | 12 | 259 | 225 |
| **Kəlbəcər** | 936 | 57,5 | 217 | 134 | 87 | 217 | 49 |
| CƏMİ: | 8134 | 465,0 | 768 | 2001 | 193 | 2312 | 2598 |

Uzun sürən işğaldan sonra Şanlı Azərbaycan Ordusu cəmi 44 günə Ermənistan ordusunu darmadağın edərək torpaqlarımızı azad etdi. Lakin bununla da hər şey bitmədi. Azərbaycan dünyada mina ilə ən çox çirklənmiş ölkələr sırasındadır. İlkin hesablamalara görə, Ermənistan işğal zamanı bir milyondan çox mina basdırıb. İkinci Qarabağ müharibəsinin başa çatmasından keçən illər ərzində 250-dən çox Azərbaycan vətəndaşı mina partlayışları zamanı həlak olub və ya ağır yaralanıb: "Beynəlxalq mütəxəssislərin hesablamalarına görə, Azərbaycana ərazilərin minalardan təmizlənməsi məsələsini həll etmək üçün təxminən 30 il və 25 milyard ABŞ dolları lazımdır. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin məlumatına görə, Vətən Müharibəsindən sonrakı dövr ərzində 289 nəfər vətəndaş mina və digər partlayıcı sursatların qurbanına çevrilib ki, onlardan 51 nəfəri həlak olub, 238 nəfər xəsarət alıb. Ümumilikdə 1991-ci ildən indiyə qədər baş vermiş mina hadisələri nəticəsində 357 nəfəri uşaq, 38 nəfəri isə qadın olmaqla, 3368 nəfər mina partlayışından həlak olub və ya xəsarət alıb.

Şanlı ordumuzun tarixi qələbəsindən qısa müddət sonra 02 fevral 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Azərbaycan 2030: sosial–iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi hqqında Sərəncam imzalanmış dır. Sənəddə son 17 il ərzində ölkənin iqtisadi inkişafının ictimai münasibətlərin bütün sahələrinə sirayət etdiyi göstərilməklə yanaşı dövlətin iqtisadi inkişafından qaynaqlanan yüksək maliyyə imkanları uzun illər makroiqtisadi sabitlik və artıma mühüm töhfə verdiyi, təhlükəsizliyin təmini üçün güclü poten-

sial yaratdığı göstərilmişdir. Ölkədə yaşanan siyasi sabitlik, təhlükəsizlik mühiti və davamlı iqtisadi inkişaf xalqın rifahını təmin edən əsas taleyüklü amillərddən olmuşdur. Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır:

1. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Qeyd edilən Milli Prioritetlər, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası və işğaldan azad olunmuş ərazilərə böyük qayıdış istiqamətində də xüsusi əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" 7 iyul 2021-ci il tarixli Fərmanı, ölkəmizin 44 günlük Vətən müharibəsində əldə etdiyi zəfərdən sonra formalaşmış yeni reallıqlara əsaslanan yeni inkişaf strategiyası idi. Yeni təsnifat iqtisadi rayonları coğrafi baxımdan fərqləndirməklə yanaşı, onların iqtisadi potensialına uyğun qiymətləndirmə aparağa da imkan verirməklə yanaşı rayonlarımızın iqtisadi potensialının genişlənməsi baxımından da çox vacibdir. Bu, nəticə etibarilə həmin ərazilərdə iqtisadi inkişafın daha qısa zamanda formalaşmasına stimul yaradacaq. Artıq ölkəmizin iqtisadi rayonlarının sırasında Qarabağ, Şərqi Zəngəzur da var və bu həm strateji, həm iqtisadi, həm də tarixi baxımından kifayət qədər vacib bir hadisədir. Qarabağ iqtisadi rayonunun istər sənaye, istər turizm, istərsə də aqrar sektorda böyük potensialı var. Bunun kimi, Şərqi Zəngəzur da həm aqrar sənaye, həm də təbii ehtiyatlar baxımından kifayət qədər böyük potensiala malik iqtisadi rayondur.

Beləliklə işğaldan azad edilmiş ərazilərdə bərpa quruculuq işəri sürətlə davam edir. Füzuli Beynəlxalq Hava Limanını artıq istifadəyə verilib. İşğaldan azad olunmuş Zəngilan və Laçın rayonlarında hazırda daha iki hava limanının tikintisi davam edir. Füzuli- Şuşa, Füzuli- Hadrud, Füzuli-Zəngilan avtomobil yollarının və Horadiz-Ağbənd dəmir yolunun çəkilişi uğurla icra olunur. Zəfər yolu artıq öz sərnişinlərinin istifadəsindədir.

2021-ci il 28 aprel tarixində Zəngilandan Ağalıda "Ağıllı kənd" 5G texnologiyası üzrə ilkin olaraq "Smart city" (Ağıllı şəhər) və "Smart village" kimi möhtəşəm layihələr uğurla başa çatdırıldı. Qarabağın "yaşıl enerji zonasına" çevrilməsi çərçivəsində Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Yaponiyanın TEPSCO şirkəti arasında müqavilə imzalanmışdır.

Şuşada "Qarabağ" və "Xarıbülbül" otelləri istifadəyə verildi,"Vaqif poeziya günləri", "Xarıbülbül musiqi festivalı" bərpa olundu.

İşğaldan azad edilmiş ərazilərin potensialı və coğrafi şəraiti nəzərə alınaraq, Kəlbəcər rayonu hasilat və turizm sənayesi, Ağdam rayonu emal sənayesi, Şuşa rayonu mədəniyyət və turizm sənayesi, Cəbrayıl rayonu ticarət-logistika xidməti, Qubadlı, Zəngilan, Laçın, Füzuli və Xocavənd rayonları isə kənd təsərrüfatı və turizm sahəsi üzrə yeni iqtisadi mərkəzlər kimi qiymətləndirilə bilər.

Qarabağ bölgəsi və ətraf ərazilərdə Ermənistan silahlı qüvvələri tərəfindən basdırılan minaların təmizlənməsi tədbirləri davam etdirilir. ANAMA-nın məlumatına görə, İkinci Qarabağ müharibəsindən sonra 18302 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib. Həmin ərazilərdə 22230 partlamamış hərbi sursat, 17426 piyada əleyhinə, 8755 tank əleyhinə mina aşkar edilərək zərərsizləşdirilib.

Göründüyü kimi, ətraf mühitin mühafizəsi, ekologiyanın qorunması sahəsində çox işlər görülmüşdür. Hesab edirik ki, ölkə iqtisadiyyatının, sosial həyatının, mədəniyyətinin inkişafına, eyni zamanda ekologiyanın qorunmasına, ətraf mühitin mühafizəsinə gündəlik diqqət və qayğısının, həyata keçirdiyi qətiyyətli və məqsədyönlü tədbirlər nəticəsində yaxın müddətdə ölkədə mövcud olan ekoloji problemlər də tam aradan qaldırılacaqdır.

Bütün bunlara baxmayaraq ekologiya sahəsində problemlər işğaldan azad edilmiş ərazilərdə köklü olaraq qalmaqdadır.Bu problemlərin aradan qaldırılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

- İşğaldan azad olunmuş ərazilərdə ekoloji problemlərin həll olunması məqsədilə yeni Dövlət proqramları və normativ hüquqi aktların qəbul olunmasına ehtiyac vardır.
- Azərbaycanın gənc ekofəlları, vətəndaş cəmiyyətinin üzvləri 138 gün davam edən, Laçın-Şuşa yolunda humanitar aksiya keçirən, cari ilin aprelin 28-də dayandırdıqları aksiyanın Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasına, ekoloji və digər fəsadlarla bağlı monitorinqin keçirilməsi təmin olunmazsa yenidən başlanilmasına start vermək,
- Şəhərlərin dağıdılması nəticəsində yaranan ekoloji problemlər və ərazilərin səhralaşmasının qarşısının alınması məqsədilə aparılan işlərin intensivliyinin artırılması,
- Metsomor AES tərəfindən Araz çayının radioaktiv tullantılarla çirkləndirilməsi nəticəsində ərazilərin normadan artıq radiasiya çirklənməsi ilə əlaqədar MAQATE qarşısında onun bağlanması məsələsini yenidən gündəmə gətirmək,
- Qoruqların, yasaqlıqların məhvi nəticəsində ərazilərdə fauna və floranın məhvi,eləcə də "Qırmızı kitaba" düşən müxtəlif bitki və ağac növlərinin məhv edilməsi ilə əlaqədar BMT-nin ixtisaslaşmış qurumları qarşısında məsələ qaldırmaq,
- İşğaldan azad olunmuş ərazilərdə minaların yerləşdirilməsi xəritələrinin təqdim olunması ilə əlaqədar Beynəlxalq təşkilatlar qarşısında mütəmadi məsələlər qaldırmaq.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Konstitusiyası, Bakı, "Azəməşr", 1995.
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, 2 fevral, 2021.
3. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan respublikası prezidentinin fərmanı.07 iyul 2021.
4. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 4 avqust 1999-cu il.
5. "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 8 iyun 1999-cu il
6. Bəhərci T, Mehdiyeva V.Azərbaycan Respublikasının təbii şəraiti, təbii ehtiyatları və onların iqtisadi-ekoloji qiymətləndirilməsi. Dərslik ADİU, Bakı 2012
7. Bəhərci T, Mehdiyeva V.Xəzər dənizi və ekologiyası OYU-nun "Elm və pedaqoji xəbərləri". Bakı, 2010
8. AbdullayevaF. "Ekoloji turizm-sağlam istirahət və təbiəti mühafizə". Elmi məqalələr toplusu. 2010
9. "Laçın dövlət yasaqlığı", "Laçın yurdu" jurnalı, № 1 (12), Bakı, "Bəxtiyar-4" nəşriyyatı, (2014. səh.15–16)
10. Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin VI Zirvə Toplantısı. Astana ş. Qazaxıstan. Prezident İ.Əliyevin çıxışından.13 oktyabr 2023.
11. https://www.e-qanun.az/
12. https://www.stat.gov.az/
13. https:// www.eco.gov.az./
14. https://www.iqtisadiyyat.com.az/


### Azərbaycanda işğaldan azad olmuş ərazilərin ekoloji problemləri və onların həlli istiqamətləri

## XÜLASƏ


Azərbaycan Respublikasının Qarabağ və ətraf rayonlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməklə, uzun müddət işğal altında saxlanılması nəticəsində həmin ərazilərdə ətraf mühitə, bioloji müxtəlifliyə, o cümlədən flora və fauna növlərinə, xüsusi mühafizə olunan təbiət ərazilərinə zərər vurulmuş, qiymətli ağac növləri ilə zəngin meşələr, eləcə də təbiət abidələri məqsədli şəkildə talan olunmuşdur.

İşğal dövründə Azərbaycanın 261 min hektar meşə fondu sahəsi Ermənistanın vandalizm

cinayətlərinə məruz qalıb. Bu dövrdə düşmən regionun təbii sərvətlərini talan edib, bu ərazilərdə mütəmadi olaraq yanğınlar törədib, bununla da Qarabağın flora və faunasına, bölgənin ekoloji durumuna bərpa edilməsi çətin olan zərər vurub.

İkinci Qarabağ müharibəsində məğlub olmasını və uzun illər işğal altında saxladığı torpaqların Azərbaycanın qəhrəman Ordusu tərəfindən geri qaytarılmasını həzm edə bilməyən Ermənistan hakimiyyəti daha bir cinayətə əl ataraq ərazilərə müxtəlif növ minalar yerləşdirib. İşğal etdiyi Azərbaycan torpaqlarını xarabalığa çevirən, kəndlərimizi, şəhərlərimizi yerlə-yeksan edən ermənilər Vətən müharibəsində məğlub olduqdan sonra da öz mənfur xislətlərinə uyğun davranışlarını hələ də davam etdirirlər.Bu baxımdan işğaldan azad olunmuş ərazilərdə ekoloji problemlər müxtəlif istiqamətlidir.

Məlum olduğu kimi, işğaldan azad olunmuş ərazilərdə bərpa işləri planlı şəkildə, ardıcıllıqla həyata keçirilir. Ərazilərin minalardan təmizlənməsi isə əsas vəzifə kimi müəyyənləşdirilib. Belə ki, təcavüzkar ölkə vaxtilə işğal altında saxladığı torpaqlara, hətta hərbi təyinatı olmayan ərazilərə belə minalar yerləşdiriblər.

Məqalədə işğaldan azad edilmiş ərazilərin ekoloji problemləri araşdırılmış,onların həlli istiqamətləri müəyyənləşdirilmişdir.

***Açar sözlər:****ekoloji problemlər,ekoloji tarazlıq, ətraf mühüt,antropogen təsirlər.*

## Environmental problems of territories freed from occupation in Azerbaijan and directions for their solution

## SUMMARY

As a result of the occupation of Karabakh and surrounding regions of the Republic of Azerbaijan by the Armed Forces of Armenia and keeping them under occupation for a long time, the environment, biological diversity, including flora and fauna species, specially protected natural areas were damaged, forests rich in valuable tree species, as well as natural monuments were purposefully looted.

During the occupation, 261 thousand hectares of Forest Fund of Azerbaijan were subjected to vandalism crimes of Armenia. During this period, the enemy plundered the natural resources of the region, regularly set fires in these areas, thereby causing damage to the flora and fauna of Karabakh and the ecological situation of the region, which is difficult to restore.

Unable to digest the defeat in the second Karabakh War and the return of the lands occupied for many years by the heroic army of Azerbaijan, the Armenian authorities committed another crime and placed various types of Mines on the territory. The Armenians, who ruined the occupied Azerbaijani lands and destroyed our villages and cities, continue their behavior in accordance with their despicable qualities even after the defeat in the Patriotic War.From this point of view, environmental problems in the liberated territories are of different directions.

As is known, restoration work in the liberated territories is carried out in a planned and consistent manner. And the demining of the territories is defined as the main task. Thus, the aggressor country placed mines on the lands that it once occupied, even those that did not have a military purpose.

The article examined the environmental problems of the liberated territories and identified directions for their solution.

***Keywords****: environmental problems, ecological balance,environmental, anthropogenic impacts.*

*Məqaləyə AzMİU-nun "İqtisadi nəzəriyyə və marketinq" kafedrasının müdiri, dos. A.M. Ağayev rəy vermişdir.*